27 sentyabrda Azərbaycan xalqı fərqli bir səhərə oyandı. Müdafiə Nazirliyinin rəsmi mənbələrində 26.09.2020 tarixinə olan "Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan və snayper tüfənglərindən də istifadə etməklə sutka ərzində atəşkəs rejimini 48 dəfə pozub" xəbəri bu qəbildən olan və artıq 27 ildən çox bir müddətdə eşitməkdən yorulduğumuz xəbərlərin biridir. 27 sentyabr tarixindən düşmənin atəşkəs rejimini pozması cavab atəşi ilə deyil, uğurlu əks-hücum əməliyyatı ilə cavablandırıldı.

Bu günlərdə ordumuz döyüş meydanında qanı ilə "şərəf dastanı" yazır. Hazırda Ali Baş Komandanın rəhbərliyi ilə ordumuzun həyata keçirdiyi bu zəfər yürüşü xalqımızı 200 illik məğlubiyyət psixologiyasından qurtararaq yeni qalib gələcəyə doğru aparır.

Bu gün biz həm hüquqi, həm də tarixi ərazilərimizi bərpa edirik. Qafqaza XIX əsrin əvvəllərindən köçürülməyə başlamış ermənilər bu ərazilərin nə hüquqi, nə də tarixi sahibləri deyillər. Rusiya-İran arasında 1828-ci il fevral ayının 10-da imzalanmış Türkmənçay müqaviləsinin 15-ci bəndinə əsasən İran

# Vətən, yeni tarixin mübarək



ərazisində yaşayan ermənilər müqavilə imzalandıqdan sonra Arazın şimalı ilə Qarabağın dağlıq ərazilərinə köçürüldü. Təkcə 1828-1829-cu illər ərzində 40-50 min erməni Azərbaycan ərazisinə köçürülmüşdür. Bu miqrasiya bir çox yazılı mənbələrdə, o cümlədən erməni mənbələrində əks olunmuşdur. Tərtər rayonunun Şıxarx kəndində olan "Marağa 150" abidəsi də məhz ermənilərin özü tərəfindən 1978-ci ildə ilk 200 erməni ailəsinin İranın Marağa şəhərindən Qarabağa köçürülməsi şərəfinə düzəldilmişdir. Adi çay daşlarından hazırlanmış 1 metr hündürlük, 3 metr enində olan bu abidə 1991-ci ildə ermənilərin özü tərəfindən dağıdılmışdır. Lakin tarixi faktları təhrif etmək üçün dağıdılmış bu abidənin açılışı haqqında 1979-cu ildə bütün Qarabağ KİV-lərində yetərincə məlumat vardır.

Beləliklə, bizim bu günlərdə öz tarixi torpaqlarımızda, beynəlxalq hüquqla təsdiq olunmuş ərazilərimiz daxilində haqlı ZƏFƏR YÜRÜŞÜMÜZ davam edir. Cəbhədə 30 günlük qısa müddət ərzində 4 şəhər, 3 qəsəbə, 166 kənd işğalçılardan azad edilmişdir. Hazırda bu ağır məğlubiyyətdən büsbütün sarsılmış aciz düşmənin Gəncə və Bərdə şəhərlərində onlarla mülki şəxsin öldürülməsi ilə törətdiyi müharibə cinayətləri ermənilərin döyüş meydanında olan məğlubiyyətinin cılız, ermənisayaq cavabıdır.

Torpaq şəhid qanı ilə qarışanda VƏTƏN olur. Vətənə xidmətin isə böyüyü, kiçiyi olmur. Əcdadımızdan miras qalmış bu VƏTƏNİ qorumaq hamımızın vicdan borcudur. Hər bir şərəfli Azərbaycan vətəndaşı sahib olduğu peşədən, yaşadığı ərazidən asılı olmayaraq vətənə şərəflə xidmət edir. Bu dünən də belə idi, bu gün də belədir, sabah da belə olacaq!

VƏTƏN, YENİ TARİXİN MÜBARƏK!!!

***Mehriban MÖVLAMOVA,***
***Azərbaycan Dillər Universitetinin***
***Azərbaycan Ədəbiyyatı***
***Kafedrasının baş müəllimi***